# Zərifə xanım gözlərə nur, ürəklərə şəfa bəxş edirdi

**15 aprel Azərbaycanın elm, şəfqət və mərhəmət simvolu olan Zərifə xanım Əliyevanın anım günüdür. Ömrünün hər anını insanlara xidmətə həsr etmiş Zərifə xanımın həyat yolu, elmi fəaliyyəti və şəxsiyyəti Azərbaycan qadınının gücünü, iradəsini və nəcibliyini bütün dünyaya nümayiş etdirdi.**

Göz xəstəlikləri sahəsində apardığı araşdırmalar yalnız Azərbaycan deyil, bütün dünya oftalmologiyası üçün əvəzsiz töhfələr verdi. Xüsusilə peşə xəstəliklərinin profilaktikası və müalicəsi istiqamətində qazandığı uğurlar insan sağlamlığının qorunmasına misilsiz töhfə oldu. Zərifə xanım 12-dən çox elmi monoqrafiyanın və 100-dən artıq elmi məqalənin müəllifidir. Tibb elminə göstərdiyi xidmətlərə görə SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü seçilmiş, həmçinin SSRİ Dövlət Mükafatı laureatı kimi yüksək ada layiq görülmüşdür. Yetirmələri bu gün də Zərifə xanımın adını böyük qürur və hörmətlə çəkirlər. Onun elmi nailiyyətləri beynəlxalq miqyasda da yüksək qiymətləndirilir.

Zərifə xanım üçün ən böyük mükafat, heç şübhəsiz, insanlara işıq bəxş etmək idi. Ana kimi, ailəsinin dayağı oldu, cəmiyyətə, vətənə layiqli övladlar bəxş etdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə bir ömrü bölüşdü. Zərifə xanım Heydər Əliyevin sadəcə həyat yoldaşı deyildi, həm də mənəvi dayağı idi. Heydər Əliyevin ömür-gün yoldaşına verdiyi qiymət çox yüksək idi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhvali-ruhiyyədədirlər. Onlar bu əhvali-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür... Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib".

Zərifə xanım öz fəaliyyəti ilə göstərdi ki, insan gərək həyatda iz qoysun, nəinki yaşasın, həm də yaşatsın. O, insanların gözlərində işıq, könüllərdə nur çırağı yandırdı. Bu gün, 15 aprel Zərifə Əliyevanın anım günündə onu dərin hörmət və ehtiramla yad edirik.

**Şahin SEYİDZADƏ,**
**Milli Məclisin deputatı.**

Respublika.- 2025.- 15 aprel(№73).- S.9.